## Azərbaycan Respublikası Nazirlər Kabinetinin

## Qərarı № 425

### Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 230 nömrəli qərarı ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nda dəyişikliklər edilməsi haqqında

**Bakı şəhəri, 28 oktyabr 2016-cı il**

"Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanının 6.6-cı bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 oktyabr tarixli 230 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 10, maddə 1012; 2015, № 5, maddə 643) ilə təsdiq edilmiş "Gömrük brokerlərinin dövlət reyestrinin aparılması Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 1.3-cü bənddə "fəaliyyəti üçün lisenziya almış" sözləri "fəaliyyətini həyata keçirən" sözləri ilə əvəz edilsin.

**2.** 3-cü hissənin mətni aşağıdakı redaksiyada verilsin:

"Gömrük brokeri yenidən təşkil edildikdə, adı və ya hüquqi ünvanı dəyişdikdə, dövlət reyestrində müvafiq dəyişikliklər edilir.".

**3.** 4.1-ci və 4.2-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"4.1. Gömrük brokerinin fəaliyyəti dayandırıldıqda və ya fəaliyyətinə xitam verildikdə, gömrük brokeri dövlət reyestrindən çıxarılır.

4.2. Fəaliyyəti dayandırılmış gömrük brokerinin fəaliyyəti yenidən bərpa edildikdə, gömrük brokeri yenidən dövlət reyestrinə daxil edilir.".

**Artur Rasi-zadə**
**Azərbaycan Respublikasının Baş naziri**